Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Dana əti 'ceyran belində'

5 dəqiqə öncə




Azərbaycanlı avropalıdan iki dəfə az ət yeyir, amma... 'Qiymət artımı qaçılmazdır'

Son günlər Azərbaycanda yenidən dana ətinin bahalaşdığı bildirilir.

Bakı sakinlərinin sözlərinə görə, hazırda paytaxtın bir sıra pərakəndə satış məntəqələrində **sümüklü dana əti 18 manat 50 qəpiyə, sümüksüz ət isə 23 manata təklif olunur.**

Satıcılar baş verənləri tədarükçülərin qiymət artımı ilə izah edirlər.

Ötən ilin eyni dövründə Azərbaycanda dana ətinin kiloqramı 16, iki il əvvəl isə 13-14 manata satılırdı. Bu ilin əvvəlində də ölkədə dana ətinin 1-2 manat civarında bahalaşdığı açıqlanmışdı.

Hökumət rəsmiləri hələlik ətlə bağlı son qiymət artımını şərh etməyiblər. Müstəqil iqtisadçılar isə bunu əsasən ölkədə ətə olan tələbatın ödənilməməsi və ümumilikdə inflyasiya prosesi ilə izah edirlər.

Dövlət Statistika Komitəsinin son məlumatında bildirilirdi ki, **bu ilin yanvar-iyul aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 3.8 faiz artıb.** (248.2 min ton) Lakin müstəqil iqtisadçılar bu artımı yetərli saymırlar. Üstəlik, onlardan bəziləri istehsalda artımın şişirdilməsindən şübhələnirlər.

Dövlət Gömrük Komitəsinin məlumatında isə bu ilin 7 ayında ötən ilin analoji dövrü ilə müqayisədə ölkəyə ət idxalının artdığı bildirilir.

Müstəqil iqtisadçılar bahalaşmanın səbəblərini şərh edərkən son illər ölkədə həm mal-qaranın sayının azalmasını, həm də yem məhsullarının bahalaşmasını əsas gətirirlər. Onlar vurğulayırlar ki, son illər pambıq əkininin genişləndirilməsi səbəbindən ölkədə örüş yerlərində azalma var.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur